# Azərbaycan-Belarus münasibətlərinin inkişafı ölkələrimiz üçün çox əhəmiyyətlidir

*Azərbaycanın xarici siyasətində MDB ölkələri ilə əlaqələr də mühüm yer tutur. Bu baxımdan ölkəmizin Belarus ilə əməkdaşlığı müsbət nəticələr verir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ölkələrimiz arasındakı münasibətlər hazırda strateji tərəfdaşlıq səviyyəsindədir. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfərinin ikitərəfli əlaqələrin genişlənməsində mühüm rol oynayacağını vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, ikitərəfli münasibətlərimizi çox yüksək qiymətləndiririk: "Artıq bir neçə dəfə yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlərimiz olub. Qarşılıqlı siyasi əlaqələrimiz, siyasi məsləhətləşmələrimiz çox fəaldır. Son bir neçə ildə Belarus-Azərbaycan münasibətləri möhkəmlənmiş, çox yüksək səviyyəyə çatmışdır. Biz iqtisadi əlaqələrdə, sənaye istehsalı sahəsində, humanitar sahədə, energetika sahəsində yaxşı nəticələr əldə etmişik. Lakin ən başlıcası, son illərdə fəal qarşılıqlı əlaqələr bizi bir-birimizə o dərəcədə yaxınlaşdırmışdır ki, artıq nəinki regionda, həm də bütün dünyada Belarus və Azərbaycanı çox yaxın, dost ölkələr hesab edirlər".*

Azərbaycan və Belarus münasibətləri son illərdə çox yüksək səviyyəyə çatıb. Dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin genişlənməsini daha da intensiv edir. Belarus prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana yüksək səviyyədə keçən rəsmi səfəri hazırda iki ölkə arasında mövcud olan rəğbət və dostluğu, sosial, siyasi və xüsusilə də iqtisadi sahədə əməkdaşlığı inkişaf etdirmək, qarşılıqlı faydaya çevirmək baxımından çox əhəmiyyətli oldu. Azərbaycan və Belarus prezidentlərinin təkbətək və geniş tərkibdə görüşündə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı, dövlətlərimiz arasında əlaqələrin daha da genişlənməsi üçün böyük potensialın olduğu vurğulandı.

İki ölkə arasında əldə edilən razılaşmalar Belarus prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfərinin məhsuldar nəticələrini əks etdirir. İkitərəfli münasibətlərin daha da genişlənərək strateji əməkdaşlıq xarakteri aldığını bildirən Belarus prezidenti Aleksandr Lukaşenko bildirib ki, bu gün biz Azərbaycan biznesmenlərini və Azərbaycan dövlətini Belarus ərazisində maraqlandıra biləcək layihələrə daha geniş sərmayə qoyulması məsələsində dövlət başçısı cənab İlham Əliyevdən də dəstək aldıq: "Bizim kooparesiya əlaqələrimiz necə əməkdaşlıq etmək lazım olduğunu göstərir. Bu gün biz bu haqda da danışdıq. Razılaşdıq ki, bu istiqaməti gücləndirəcəyik. Biz əvvəlcə Azərbaycan ərazisində adi texnikanın yığılmasından başlamışdıq. Bu gün artıq bir sıra istehsalatlar—traktorların, avtomobillərin, avtobusların yığılması istehsalatları artıq 40-60 faiz lokallaşdırılmışdır. Bu, Azərbaycan Respublikasının çox yüksək potensialına dəlalət edir. Ona görə biz yığma əməliyyatlarından müştərək müəssisələrə keçdik... Bu gün artıq müştərək müəssisələrdə minlərlə vahid texnika istehsal edirik".

Məlumat üçün bildirək ki, Azərbaycanda "Belarus" markalı traktorlar, yük avtomobilləri, avtokranlar, MAZ markalı maşınlar, liftlər, işıq-diod texnologiyaları əsasında işləyən optik cihazlar və lampalar yığılması üzrə istehsalatlar yaradılmışdır. İstehsalat kooperasiyası sahəsində Belarus-Azərbaycan əməkdaşlığının lideri Gəncə avtomobil zavodudur. Hazırda Azərbaycana Belarusun 250-dən çox müəssisəsinin məhsulları göndərilir. Ticari-iqtisadi sahədə, iqtisadiyyatda çox faydalı dinamika müşahidə edilir. 2006-2012-ci illərdə ticari-iqtisadi əlaqəlrin genişlənməsinin göstəricisi olan əmtəə dövriyyəsi meyarı altı dəfə artmışdır.

Həm ikitərəfli əməkdaşlıq, həm də çoxtərəfli əlaqələr çərçivəsində dövlətlərimizin potensialı çox böyükdür. Azərbaycan ilə əməkdaşlıq Belarus üçün həmişə prioritet məsələ olmuşdur. Belarus tərəfi həmişə çalışmışdır ki, ikitərəfli əməkdaşlıq çərçivəsində öz üzərinə götürdüyü öhdəlikləri tam həcmdə yerinə yetirsin. Müştərək iqtisadi istehsalatlar, ticari-iqtisadi münasibətlər yaradılmasında Belarusun maraqlı olduğunu vurğulayan cənab Aleksandr Lukaşenko bildirib:... "Azərbaycanda artıq istehsal etdiyimiz bütün məhsullar Azərbaycana sığmır, beləliklə, qarşımızda bir məsələ yaranmışdır — üçüncü ölkələrin bazarlarına çıxmaq və birgə istehsal etdiyimiz məhsulları birgə satmaq. Yəni biz artıq xeyli yol keçmişik, birgə məhsul yaratmışıq..."

Cənab Lukaşenkonun Azərbaycana səfəri çərçivəsində imzalanan mühüm sənədlər ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına, münasibətlərin əvvəlki kimi dinamik inkişaf etməsinə şərait yaradır. Dövlət başçısının vurğuladağı kimi birgə istehsal edilən məhsulların digər ölkələrin bazarlarına çıxışı perspektivləri artır.

Azərbaycanın Belarusla çox geniş məsələlər üzrə əməkdaşlıq etdiyini, beynəlxalq təşkilatlarda da dövlətlərimizin bir-birini çox fəal dəstəklədiyini bildirən cənab İlham Əliyev mətbuat üçün bəyanatında vurğulayıb ki, bizim münasibətlər səmimilik, qarşılıqlı hörmət və qarşılıqlı dəstəklə səciyyəvidir: "Artıq yaxşı nəticələr əldə edilmiş sahələrdə səylərimizi artırmalı, yeni istiqamətləri fəallaşdırmalıyıq. ...Belarusda özəlləşdirmədə Azərbaycan müəssisələrinin iştirakını, habelə birgə istehsal edilmiş məhsulların üçüncü ölkələrin bazarlarına birgə çıxarılması məsələlərini ikitərəfli münasibətlərimizin yeni mövzuları kimi müəyyən etdik. Zənnimcə, biz bu yeni istiqamətlərdə də çox müsbət məqamlar tapacağıq. Biz çalışacağıq ki, bu yeni istiqamətlər ikitərəfli münasibətlərin geniş gündəliyinin tərkib hissəsinə çevrilsinlər."

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

Respublika.- 2013.- 24 noyabr.- S. 3.